# BAKIDA IV BEYNƏLXALQ TURİZM FİLMLƏRİ FESTİVALI




Hər il dünyanın 18 ölkəsində reallaşan turizm filmləri festivalları arasında Bakı Beynəlxalq Turizm Filmləri Festivalı özünəməxsus yer tutur. Paytaxtımız noyabrın 15-dən 17-dək keçirilən festivala artıq 4-cü dəfə ev sahibliyi etdi.

Bakı Beynəlxalq Turizm Filmləri Festivalı qərargahı Vyanada yerləşən Turizm Film Festivalları Beynəlxalq Komitəsinin (CIFFT) rəhbərliyi altında gerçəkləşir. Azərbaycan bu təşkilatla yaxından əməkdaşlıq edir. Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən festivalın məqsədi isə turizmin müxtəlif sahələrinə həsr olunan, daxili və beynəlxalq turizmin inkişafına təkan verə biləcək filmləri təbliğ etmək, ən yaxşı filmlərin müəlliflərini həvəsləndirməkdir.

### Festivalın böyük perspektivləri var

Bakıda keçirilən festivallara hər zaman maraq böyükdür. Bəlkə elə bu səbəbdəndir ki, ilk festivala 41 ölkədən 250 film təqdim olunduğu halda, 4-cü festivala artıq 70 ölkədən 424 ekran əsəri göndərilib. Festivalın seçim komissiyası filmlər arasında seçim apararaq proqram müəyyənləşdirib və 40 ölkədən 84 film müsabiqəyə qəbul olunub.



Onu da qeyd edək ki, bu festivala da filmlər ölkə, region və şəhər, mədəniyyət və ənənə, reklam filmləri, ekoloji turizm və digər turizm növləri, nəhayət, TV məhsulları (filmlər, videoçarxlar) kimi 5 kateqoriya üzrə təqdim edilib. Hər kateqoriya üzrə birinci, ikinci, üçüncü yerləri tutan ekran əsərləri müvafiq olaraq qızıl, gümüş və bürünc medallara, eyni zamanda diplom və pul mükafatlarına layiq görülür. Festivalın ən yaxşı filmi isə "Qran-pri" adı ilə təqdim olunur. Yerli filmlər eyni zamanda "Milli mükafat" uğrunda da mübarizə aparır.



Azərbaycan festivala "Ölkə, region, şəhər" kateqoriyasında "Azərbaycan. Ecazkar diyar", "Bakı. Əsrlərin aynasında", "Azərbaycanın ruhu" və "Vulkanın nəfəsi" filmləri ilə qatılıb.



Turizm Filmləri Festivalları Beynəlxalq Komitəsinin direktoru Aleksandr Kammel jurnalistlər üçün keçirilən mətbuat konfransında qeyd edib ki, festival müxtəlif ölkələrdən rejissorların bir araya gətirilməsi və təcrübə mübadiləsi üçün mühüm imkanlar açır. Festivalın artıq ənənəyə çevrilməsi də Azərbaycanın həm turizm potensialının tanıdılması, həm də kino sənayesinin inkişafına öz töhfəsini verir. Mütəxəssis deyib ki, Bakıda keçirilən Beynəlxalq Turizm Filmləri Festivalına böyük maraq var. Bunu müsabiqəyə təqdim olunan filmlərin sayı da təsdiqləyir.

Film şöləni bu il üçün Beynəlxalq Turizm Filmləri Festivalları Komitəsinin dəstəyi ilə təşkil olunan sonuncu tədbirdir. Bundan sonra il ərzində turizm filmləri festivallarında uğur qazanan ilin ən yaxşı turizm filmləri Vyanada "Qran-pri" mükafatının təqdim olunması üçün "Festivallar festivalı"nda da yarışacaq.

Mətbuat konfransında jurnalistlərin sualları da cavablandırılıb. Bildirilib ki, festivalın böyük perspektivləri var.

> **Festivala təqdim olunan filmlər kinematoqrafçılar, media, səyahət və turizm ekspertlərindən ibarət beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilib. Münsiflər heyətinə Azərbaycandan Rafiq Quliyev, Ülkər Mütəllimova, Türkiyədən Can Saracoğlu, Polşadan Eva Kotus, Gürcüstandan Zurab Dvali daxil olub. Təqdim olunan filmlərin bədiiliyi, rejissor işi və turizm baxımından informasiyalılığı nəzərə alınıb.**

### Milli mükafatı azərbaycanlı rejissor qazanıb

Beləliklə, festivalın baş mükafatının – "Qran-pri"nin sahibi fransalı rejissor Metyu Li Leyin "Kumano" filmi olub. Festivalın milli mükafatını isə Azərbaycan rejissoru Adil Azayın "Vulkanın nəfəsi" filmi qazanıb.

Türkiyəli rejissor Onur Kıratlının "Mersinin sirləri" filmi münsiflər heyətinin xüsusi mükafatına layiq görülüb.

Müsabiqənin "Ölkə, region, şəhər" nominasiyasında Birləşmiş Ərəb Əmirliklərini təmsil edən rejissor Prakaş Vermanın "Şah Ruh Xanla Dubayda qonağım ol" filmi qızıl, yunanıstanlı rejissor Teo Papadoulakisin "Sitia, sənə əlvida demək çətindir!" filmi gümüş, Portuqaliya təmsilçisi Sara Reisin "Mərkəzi Portuqaliyanın turizmi" filmi bürünc mükafatı qazanıb.

"Mədəniyyət, ənənə" kateqoriyasında qızıl mükafata azərbaycanlı rejissor Fuad Quliyevin "Azərbaycanın ruhu" adlı ekran əsəri, gümüşə ABŞ təmsilçisi Emmanuel İtyerin "Ləpirçi şaman" filmi, bürüncə isə ispaniyalı Santyaqo Alkazarın "Flamenko Madrid" filmi layiq görülüb.

"Reklam filmləri" kateqoriyasında qızıl mükafatı Gürcüstandan olan Dima Çxeidzenin "Gürcüstan ilə nahar" filmi alıb. Həmin nominasiyada gümüş mükafatın sahibi isveçrəli Tomas Dirnhoferin "Bruno ilə soyuqda", bürünc mükafatın sahibi isə ispaniyalı rejissor Jome Bayarrinin "Valensiyada hər şey var!" filmidir.

"Ekoturizm və digər turizm növləri" nominasiyasında birincilik ukraynalı rejissor Andrey Andreyevə nəsib olub. O, qızıl mükafatı "Daxili uçuş" filminə görə alıb. Bu nominasiyada gümüş mükafatı avstriyalı İohan Qreber "Həyatın Alp anlayışı" filminə, bürünc mükafatı isə Polşa təmsilçisi Aleksandr Zukovski "Leknıçanı cazibədar edən nədir?" filminə görə əldə edib.

"TV filmləri" kateqoriyasında isə qızıl mükafatı türkiyəli rejissor Özge Yılmaz "Coğrafi işarələr" filminə görə qazanıb. Bu sahə üzrə gümüş mükafata "Praqada edilməli 50 şey" filminə görə çexiyalı Yanek Rubes və Honza Mikulka, bürünc mükafata isə "Slovakiyadan sevgilərlə" filminə görə Pavol Barabas və Robert Sveda sahib çıxıblar.

Fəxriyyə Abdullayeva